# GÖZLƏRİ YURD YERİ, ÜRƏYİ VƏTƏN

*(Salatın Əhmədlinin yubiley yaşına)*

Həyat qəribəliklərlə doludur. Bəzən sənin uzaqdan tanıdıgın, salam verib salam aldığın bir insanla yaxından unsiyyətdə olduqda, əgər bu insan həm də yaradıcı şəxsdirsə , onun hər hansı bir misrasını, ürəyinin dərinliyindən süzülüb gələn yazılarını oxuduqda təəssüf edirsən ki, niyə bu gözəl qələm sahibini indiyəcən tanımamışam.

İstedadlı  publisist, alim və yazıçı olan Salatın Əhmədl kimi.

Mən Salatın xanımı bir neçə il öncə tanımışam. Onunla ədəbiyyatımızın beşiyi sayılan Azərbaycan Yazıçılar Birliyində qarşılaşdıq. Bir gün kitablarını mənə bagışlayanda və mən bu kitabdakı yazıların, hekayələrin sehrinə düşəndə, həmin an düşündüm ki, yox, mən Salatın xanımı yaxşı tanımamışam. Onun necə həssas bir qəlbə malik olduguna bələd olmamışam. Buna görə hətta özümü qınadım da.

Və ürəyimin hökmüylə tam qəlbimdən gələn duygularla bu yazını yazmagı qərara aldım.

Sosioloqlar sübut ediblər ki, insana hər şey gendən, qandan gəlmədir. Salatın xanım ustad sənətkarlar diyarı Qazax-Agstafa mahalında, Poylu qəsəbəsində dünyaya göz açıb, o torpağın suyunu içib, havasını udub. O torpaq dahi insanlar yetişdirib. Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Səməd Vurgun, Mehdi Hüseyn, Nəriman Həsənzadə, mənim unudulmaz müəllimim İsmayıl Şıxlı, Hüseyn Arif, Nizami Cəfərov, Akif Səməd və başqaları. Bu gün onların gözəl davamçıları olan bir çox şair və yazarlar, alimlər, mütəfəkkirlər. Onlardan biri də Salatın Əhmədlidir.

Qeyd edim ki, Salatın xanımın ömür-gün yoldaşı Tagı Əhmədovu mən illər öncə Azərbaycan Yazıçılar Birliyinin Ədəbiyyatı Təblig bürosunda işləyərkən tanımışam. Elə o vaxt Tagı müəllimin sözə, sənətə, sənət adamlarına necə dəyər verdiyyinin şahidi olmuşdum. Biz müxtəlif təşkilatlarda yazıçı və şairlərlə görüşlər təşkil edirdik. O vaxt Metropolitenin rəisi olan Tagı müəllimin islərinin hədsiz dərəcədə çox olmasına rəgmən bu görüşlərə xüsusi zaman, vaxt ayırdığının fərqindəydim. Onun özünün də şeir yazdığını eşitmişdim. 1995-ci il metro faciəsində onlarla insanı xilas etmiş şəhid Milli Qəhrəman Çingiz Babayev haqqında kitab hazırlayarkən yenə Tagı müəllimlə görüşdük. Mən onun həm də necə kövrək qəlbə malik oldugunu gördüm, duydum. Həmin faciə haqqında danışarkən Tagı müəllimin gözləri yaşardı...

Salatın xanımı tanıyanda isə, tam səmimi deyirəm, onları bir-birinə çox yaraşdırdım. Biri dahilər yetişdirən gözəl Naxçıvan torpağının yetirməsi, o biri isə ustadlar diyarı Qazax-Agstafa mahalının övladı. Onlar həm görünüşcə, həm də intellektcə, xaraktercə sanki bir-birləri üçün yaranmışlar. Bu gün də zənnimdə yanılmadığımı tam səmimi söyləyirəm.

Salatın xanım ədəbi mühitə bir qədər gec gəlsə də, (yəqin ki, bunun da əsas səbəbi övladlarının körpə olması olub) qısa müddətdə özünə hörmət qazandı, tanındı. Mən Salatın xanımın şəxsiyyəti haqqında bir neçə kəlmə deyib onun yaradıcılığına qısa ekskurs edəcəm.

Şəxsiyyət və fərdiyyət. Bunlar çox zaman bir- birini tamamlamır. Bəzən insanlar şəxsiyyət maskası altında oldugu kimi görünmürlər. Fərdiyyət isə individuallıq, yəni insanın ifadə olunmayan tərəfidir. Böyük Mövlana deyib ki, "ya oldugun kimi görün, ya da göründüyün kimi ol". Salatın xanım məhz oldugu kimi görünən insanlardandır. Onda əsil Azərbaycan xanımının bütün keyfiyyətləri cəmləşib. Alman filosofu Kantın gözəl bir kəlamı var:"Ləyaqət yüksək tərbiyənin məhsuludur". Mən hər dəfə tədbir və toplantılarda Salatın xanımla görüşəndə, söhbət edəndə məhz bu sözlər yadıma düşür. Asta, təmkinli danışığı, xanım-xatın hərəkətləri və bir qadın kimi agır çəkili olması onu həmişə gözümdə ucaldıb. Düşünürəm ki, Salatın xanımda həm şəxsi, həm də fərdi keyfiyyətlər cəmləşib.Bu isə heç şübhəsiz ki, onun çalışdığı universitetdə, ədəbi cəmiyyətdə, dost-yoldaş əhatəsində, ailədə böyük hörmət sahibi olmasına səbəb olan əsas meyardır.

Azərbaycanımızın çox gözəl atalar sözü var, deyir, "Danış, kim olduğunu bilim". Əslində, hər kəs davranışı, hərəkəti, ləyaqəti ilə əhatəsində oldugu və olmadığı mühitdə özünə hörmət qazanır. Bu aksiomadır.

Onun çoxlu kitabları-hekayələri, povestləri, publisistik yazıları və elmi araşdırmaları var. Mən Salatın xanımın "Səfərnamə"lərini sətirbəsətir oxumuşam.

Burdakı səfər təəssüratları bizi dünyanın hansı ölkələrinə aparmır? Ekzotik ölkələr haqqında oxuyanda, rəsmlərə baxanda sanki nagıllar aləminə düşürsəm. Əslində, səfərnamələr yazmaq çox yaxşı bir haldır. Həm müəllif üçün xoş xatirələrdir, həm də oxucu üçün geniş dünyagörüşüdür,  bir yenilikdir.

Xalq şairi Nəriman Həsənzadəyə "Poylu beşiyindən məktub"ları nə qədər səmimidir, ürəkdən gələn misralardır! Müəllif və şair hər ikisi Poylu beşiyində dünyaya göz açıblar. Hələ uşaqlıqdan böyük şairə, onun yaradıcılığına olan sevgisini Salatın xanım kövrək misralarla oxucuya təqdim edir.

Dahi şəxsiyyət, ümummilli liderimiz Heydər Əliyev haqqında 2010-cu ildə "H.Əliyevin dil siyasəti" mövzulu elmi işi çox diqqətə layiqdir. Məhz bu elmi işinə görə Salatın xanım filologiya üzrə fəlsəfə doktoru kimi şərəfli ada layiq görülüb. Heydər Əliyev elə bir şəxsiyyətdir ki, onun haqqında nə qədər yazılsa, nə qədər deyilsə, yenə azdır. Salatın xanım bir filoloq kimi dahi şəxsiyyətin məhz ana dilimizə necə böyük dəyər verdiyini, dilimizə hansı yenilikləri gətirdiyini faktlarla qələmə alıb. Və heç şübhəsiz ki, bu, Salatın xanımın böyük ugurudur.

Yaradıcılığında ən çox diqqətimi cəkən yazar xanımın bütün əsərlərində torpağa, vətənə, ocaga, yurd yerinə baglı olması oldu. Bu sözlərin altını xüsusi cızıram.

Qarşımda bir kirab var: "Zirzəmidə qazılan məzar". İlk növbədə kitabın adı diqqətimi çəkdi və demək olar ki, birnəfəsə oxudum. Oxudum və uzun müddət burdakı hekayələrin təsirindən çıxa bilmədim. Çünki bunlar həyatdan götürülmüş canlı hekayələrdir. Müəllif obrazların agrı-acılarını iztirablarını, baş verən hadisələri yerli-yerində  elə təsvir edir ki, nəinki hər şey gözünün önündə bir-bir canlanır, hətta özünü o hadisələrin fonunda hiss edirsən. Yazıçı həm də cəmiyyətə bir mesaj göndərir, yaddaşları bir daha silkələyir: Unutma! Bu, bizim tariximizdir!

Bəli, yazıçı o vaxt güclü olur ki, həyat həqiqətlərini qələmə alır. Bu, dünya ədəbi tarixində də sübut olunmuş bir metoddur.

Kitabda "Haramxanın dəyirmanı" hekayəsi diqqət çəkir. Adın seçilməyi zənnimcə, elə bu da cəmiyyətə bir mesajdır: ey insanlar, haram işlərlə məşğul olmayın, ömür əbədi deyil, bacarın, yaxşılıq edin. Bunu edə bilmirsinizsə, pislik də etməyin.Çünki gec-tez altını cəkəcəksiniz.

"Ağıl kişinin nagılı" hekayəsi isə çox düşündürücüdür. Yaşı yüzü haqlamış, özünün dediyi kimi "üç rus padşahı görən" Ağıl kişinin dedikləri bizi on səkkiizinci əsrin sonlarına və on doqquzuncu əsrin ilk illərinə aparır. İki sayılıb seçilən nəsli- tayfa yaşayır kənddə. Hacı Fərhad və Hacı Göyüş tayfası. Onlar bir birlərinə qız verib qız almazlar. Hər ikisi güclü, sayılıb-seçilən adamlarda idi. Hekayədə Ağıl kişinin dedikləri: " O vaxtlar bu yerlərin danışığı gedirdi. Ermənilər pul yığıb padşahın yanına xahişə-minnətə getdilər ki, bu yerləri onların hökumətinə versinlər. Onda mən uşaq idim. Atam danışırdı ki, Hacı Fərhada, Hacı Göyüçə ha elədim ki, siz də mal-pul qoyun, xərc yığın, lap elə kasıb-kusub da əl yetirər, bizdən də bir adam padşahın yanına getsin. Bu tərəf Göyçədə adlı-sanlı, savadlı adamlar vardı. Bizim Gəncəbasarda da hökumətə yol tapanlar az deyil. Atam deyirdi ki, bizimkilər bir axsaq togludan da keçmədilər. Ancaq var-dövlət toplamaq hayında idilər. Sözləri də bu oldu ki, kim bu yerləri bizdən ala bilər?"

Bəli, acı da olsa həqiqətdir. Onlar vaxtında "kim bu yerləri bizdən ala bilər?" sözlərinin əvəzinə iş görsəydilər, bir az pullarından keçib rus çarının yanına getsəydilər, o hadisələrə biganə yanaşmasaydılar, əllərini vicdanlarının üstünə qoysaydılar, bu gün heç bir yeri-yurdu bəlli olmayan bir ovuc erməni bizim dədə-baba torpaqılarımıza yiyələnməzdilər. Hacı Fərhadlar da, Hacı Göyüşlər də, onların törəmələri də ölüb getdilər, ancaq bizlərə acı bir miras qoyaraq getdilər. Və yuz əlli ildənartıqdır ki, erməni bizdən torpaq qopara-qopara gedir. Əsrlər boyu müsəlmanda olmayan birlik həmişə onların başının bəlası olub. Bu gün də elədir.



"Təndir yarası" hekayəsində yenə erməni xislətindən söhbət açılır. Onların daima üzümüzə gülüb süfrəmizin çörəyiynən dolanmalarından, əslində isə türkə qarşı həmişə məkrli, kinli olduqlarından, imkan düşən kimi silah çəkmələrindən söhbət açılır.

"Körpə səsi, ana nəfəsi" hekayəsində bir ana obrazı var. Uzun illərdən sonra ikinci dəfə ana olan qadına həkimlər uşaq xəstə doguldugu üçün süd verməməyi məsləhət görürlər. Və deyirlər ki, bu uşaq öləcək. Bunu bilən ana həkimlərin və tibb bacısının təkidinə baxmayaraq körpəsini qucagına götürür. Artıq körpə ölmək üzrə idi. Hətta agzından köpük gəlirdi. Ana uşağını döşünə salır. Uşagın gözünə işıq gəlir. Həmin uşaq sonradan böyüyüyb qolu qüvvətli igid olur və Qarabağ müharibəsində şəhid olur.

Ana südü onu körpəykən həyata qaytarmışdı.Yadıma "Kitabi Dədə Qorqud"dan bir əhvalat düşür. Yağı tərəfindən qanına qəltan edilmiş igidi anası son nəfəsində tapır, daglardan yığıdığı şəfaverici bitkilərdən məlhəm hazırlayıb ona döşündən süd sagır. Allah tərəfindən ananın döşünə süd gəlir. Ana həmin məlhəmi südüylə qarışdıraraq oğlunun yarasına çəkir. Bir neçə gündən sonra igid sagalır.

Ana südündəki şəfaverici gücə, qüvvəyə bax! İndi körpələrinə süd vermək istəməyən gənc anaları xatırlayıram. Əslində onlar övladlarına süd verməməklə onları gələcək həyatlarını təhlükəyə atmış olurlar. İnanmıram ki, ana südü əmməyən ogul böyüyüb güclü bir igid olsun. Vətəninə, anasına baglı olsun. Burda Salatın xanım çox vacib bir məsələni gündəmə gətirməklə əslində gənc analara bir mesaj göndərir.

"Başdası əhvalatı". Çox maraqlı və erməni xislətinin iç üzünü olduğu kimi açıb göstərən bir hekayədir. Əhvalat sovetin qılıncının kəsdiyi vaxtlarda Qarabağda baş verir. Uzun illərdir Şuşada qonşu olan iki ailə var. Bu ailədə iki din ayrı uşaq  Sabir və Arsaq bir -biriylə vaxt keçirir, çox mehribandılar. Bunlar orta məktəbi bitirirlər. Arsaq varlı ailədə böyüdüyü üçün ali məktəbə qəbul olur. Sabir isə atası o hələ uşaq ikən dünyasını dəyişdiyindən ailə yükü üzərində olur və oxumağa macalı da olmur. Odur ki, sənədlərini peşə məktəbinə verir və qaynaqçı sənətinə yiyəylənir. İş elə gətirir ki mühəndis kimi Xankəndində nəhəng tikinti idarəsinin rəisi olan Arsaqla bir yerdə çalışır. Arşaq ona ailəsini dolandırmaq üçün bir "yük maşını da ayırır. İlk baxışdan oxucuya Arsaqın Sabirlə həddindən artıq mehriban dolanması, ailəsinə yardım belə etməsi, torpaq sahəsi ayırması xoş təsir bagışlayır. Amma sən demə bu yaltaqlığın, "mehribançılığın" altında böyük bir hiylə, erməni xisləti gizlənibmiş. O zaman hələ Qarabağ müharibəsinin başlanmasına çox vardı. Amma ermənilər əlaltdan öz işlərini hər sahədə həyata keçirirdilər.

Arsaqın atası Şuşada erməni kilsəsində keşiş idi. Bir gün Arsaq Sabirə deyir ki, Şişikənddə məzarlığın yanında ev tikdirmək istəyir. Həm də evin üzü məzarlığa sarı baxmalıdır və atasının istəyilə başdaşını da indidən hazırlamaq istəyir. Sabir təccüblənir ki, nəyə görə üzü məzarlığa sarı? Məzarlıqda da ev olar? Arsaq cavab verir ki, "Atam bütün ömrünü Allaha qulluq edib, İstəyir ki, övladları buraya gələndə balkondan onun qəbrinə baxsınlar". Sabir yenə də şübhələnmir. Onun köməyiylə ikimərtəbə ev tikilib hazır olur. Az keçmiş atası Hayesin keşiş paltarında, əlində uzun xaç tutmuş başdaşı da elə Sabirin yük maşınıyla gətirilib həyətə otların üstünə atılır.

Bir il keçmir ki, keşiş ölür. Hətta mollalar da yas yerinə gəlirlər və Hayesin özünə qabaqcadan başdaşı hazırlatmasına pis baxmadıqlarını deyirlər. Müəllif haqlı olaraq yazır ki, "ayrı vaxt olsaydı, bunun günah olduğunu deyərdilər. İndi isə buna Hayesin uzaqgörənliyi kimi baxırlar".

Çox keçmir, Arsaq yaxın qohumlarından evinə qoyub İrəvana köçür. Gedərkən Sabirə bir "Zil" maşını da bagışlayır. Bunun da bir məqsədi varmış.

Aradan on il keçir. Artıq səksəninci illərin ortaları idi.

Bir gün Arsaq yenidən Şuşaya gəlir və Sabiri axtarıb tapır, deyir ki atamın başdaşını Yerevana aparmaq istəyirəm. Gərək mənə kömək edəsən.

Başdaşını çıxarıb "Zil"ə yükləyirlər. Yerevana çatanda Sabir görür ki, burda da onun böyük villası var. Arsaq Sabirə deyir ki, al, bu kumpulu, başdaşını sındır. Sabir təəccüblənir. Deyir ki, yox edə bilmərəm. Arsaq böyük oğluna verib deyir, sındır başdaşını. Oğlan var gücüylə başdaşını sındıranda ordan çoxlu qızıl onluqlar, brilyant üzüklər, qolbaqlar, bərq vuran daş-qaşlar yerə təkülür. Sabir heyrətə gəlir.

Bir neçə il sonra Qarabağ hadisələri başlayır. Sabir torpağını qorumaq üçün, Arsaq isə komandir kimi Qarabagı almaq ugrunda vuruşurlar. Bir gün Sabiri əsir götürürər və orada Arsaqla üz-üzə gəlir.

Arsaq onu tanısa da, soyuqqanlıqla "Hamısını güllələyin, bunu isə yaxşıca döyün, bir gözünü çıxardın, amma öldürməyin. Satın. Pulumu gətirin. Onun mənə borcu var. Beş il maşınımla işləyib pul qazanıb. Türk küçüyü borcumu verməlidir..."

Zənnimcə, izahata ehtiyac yoxdur. Qoy oxucu özü nəticə çıxartsın.

"Zirzəmidə qazılan məzar" hekayəsi olduqca təsirlidir. Yenə də erməni qərəzi, erməni xisləti.

Hadisələr Xocalı faciəsindən bəhs edir. O dəhşətli gecənin səhəri günü Bakıdan qayıdan Ərşad kəndin ermənilər tərəfindən xaraba qaldığını görür. Meşədə çoxlu insan meyidlərinə rast gəlir, onların içində anasının cəsədini tapa bilməyən Ərşad çox dilxor olur: yoxsa anası bu ahıl yaşında ermənilərə əsir düşüb? Başından sanki tüstü qalxır. Bunu təsəvvürünə belə gətirmək istəmir. Birbaşa qərargaha gəlir. Bir həbçidən paltarlarını dəyişməsini xahiş edir. Hərbçi onun məqsədini başa düşdüyü üçün bunun təhlükəli olduğunu deyir.

-Xocalıya girmək qeyri mümkündür. Erməniər nəzarəti ələ alıb. Hər yeri ələk-vələk eləmişik. Sag qalan yoxdur.

Ərşad ona fikir verməyərək tanıdıgı yollarla evlərinə tərəf sürünür. İki yüz metr qalmış bir kolluqda gizlənir. Axşam düşməyini gözləyir. Sonra yenə evlərinə tərəf sürünür. Evlərinin tüstüləndiyini görür. Qaranlıqda anasının zivədən asılmış paltarlarını görüb kövrəlir, yaş boğazına tıxanır. "Hardasan ana, başına dönüm, hardasan?"- deyə ürək agrısı ilə pıçıldayır. Ehtiyatla eyvana çıxır. Evin qapısı yerdə idi. Evdə heç nə qalmamışdı, hər şeyi ermənilər daşımışdılar. Ayağına bir mütəkkə ilişir. Ərşad qışın soyugunda isti peçin qıragında bu mütəkkəyə dirsəklənməyi çox sevərdi. Xəyala dalır. Bu vaxt evin zirzəmisindən səslər gəldi. "Bunlar bizimkilərdir!" Yaxına getmək istəyəndə çöldən ermənicə səslər eşidib gizlənir. Silah hazır vəziyyətdə idi. Iki qadın, bir silahlı erməni evə daxil olurlar. Bəlkə nəsə qalıb deyə, qarət etmək üçün. Bu vaxt zirzəmidən aglayan uşaq səsi eşidilir. Silahlı erməni zirzəminin qapısını qaldırır:

-Çıxın, türk kopayoglu!

Ərşad arxadan onlara yaxınlaşır, bir göz qıpımında onu yerə yıxıb silahını alır. Erməni qadınları isə kənara çəkilirlər.

Ərşad zirzəmiyə enəndə anasının artıq burda keçindiyini görür. Onu qucaqlayıb bagrına basır. "Ana, sən nə xoşbəxt insansan. Sən çöllərdə, düzlərdə özün yaşda güllələnmiş, əl-ayagı sarınıb öldürülmüş, heyvanlar parçalamış ellilərini-xocalıları görsəydin onda bilərdin ki, niyə sənə xoşbəxt deyirəm..."

Ərşad zirzəmidən çıxan Zöhrənin köməyilə anasını yuyub elə zirzəmidə də dəfn edir. Neçə gündü ac-susuz qalan uşaqları, qadınları götürüb gizli yollarla çıxır.

Burda qələm də acizdir yazmaqda. Buna sözün bitdiyi yer deyirlər.

Bəli, zirzəmidəki məzar düşmən əlinə keçməmək üçün qız-gəlinin namusu ləkələnməsin deyə gizlənən və orda ürəyi partlayıb ölən, daha dəqiq desək şəhid olan bir ananın məzarıdır. Bütün bunları bizə Salatın Əhmədli qələmi yaşadır, düşmənin məkrli simasını oxucuya təqdim edir.

Salatın Əhmədlinin yaradıcılığında diqqəti çəkən bir məqam da onun folklorumuza, ulu soykökümüzə çox bagılı olmasıdır. Hekayələrində dialektlərdə işlənən bəzi sözləri, məsələn car-car (meşə ətəklərində bitən kol) və s. ədəbiyaytımıza gətirməklə dilimizi daha da zənginləşdirir. Necə ki, vaxtilə böyük Səməd Vurgun "sayrışmaq" sözünü dilimizə gətirdi  və indi bu söz işlək bir sözə çevrilib.

Hər bir insanın müsbət və mənfi aurası olur. Bunu həyat sübut edib. Salatın xanımda çox müsbət aura mövcuddur. Onu tanıyan, həmsöhbət olan hər bir kəs dediklərimi təsdiq edə bilər. Onun gözlərində bir yurd sevgisi, Vətən görürəm. Onun gözlərindən Vətən boylanır, itirilmiş torpaqlarımız, qaçqınlarımız, köçgünlərimiz, Şuşa, Xocalı, Kəlbəcər, Laçın... boylanır. Maraqlıdır ki, Salatın xanımda olan bu keyfiyyətlər onun yaratdığı bir cox obrazlarda da cəmləşib.

Salatın Əhmədli hazırda Azərbaycan Memarlıq və İnşaat universitetinin Azərbaycan dili və pedaqogikası kafedrasının müdiri və dosentidir. Eyni zamanda çalışdığı ali məktəbdə YAP Qadınlar Şurasının sədridir. Bir sözlə ictimai işlərlə məşğul olan fəal bir xanımdır. Bu gün cəmiyyətdə Salatın xanım kimi fəal yaradıcı qadınlara böyük ehtiyac var. Yazar, vətəndaş və həm də Ana olmaq hər xanıma nəsib olmur. Saltın xanım məhz Tanrının seçilmiş bəndələrindəndir və bir vətəndaş yazar olaraq çiyninə düşən missiyanı şərəflə daşıyır. Bu yolda ona uğurlar arzulayırıq.

Mən Tariximizi böyük və ucu-bucagı görünməyən bir lövhəyə bənzədirəm. Buraya hər adam oz imzasını ata bilmir. Tam əminliklə deyə bilərəm ki, Salatın Əhmədli həm ulu tariximizdən, folklorumuzdan qaynaqlanan elmi araşdırmaları, publisistik məqalələri və bədii yaradıcılığı və gözəl şəxsiyyəti  ilə öz adını, imzasını  şərəflə bu lövhəyə yazdı. Elə təkcə Qarabag mövuzusunda yazdığı əsərləri bunu deməyə əsas verir. Hər halda yazılan qalır. Hər yazılan bir tarixdir. Böyük Səməd Vurgunun dediyi kimi: "Biz gəldi-gedərik, sən yaşa, dünya!" Önəmli olan bu qısa həyatda özündən sonra iz qoya bilməkdir.

Həyat qəribə oldugu qədər, həm də çox mürəkkəbdir, dolambacdır. Lap əsil labirintə bənzəyir. Önəmli olan bu əyri, dolambac yollarda düz gedə bilməkdir, xalqına, elinə-obana şərəflə, namusla xidmət etməkdir. Düşünürəm ki, ulu öndər H.Əliyev və onun davamçısı cənab İlham Əliyev siyasətinə, dövlətçiliyinə hər zaman sadiq olan Yasamal rayon YAP-nın sədri, eyni zamanda bunu xüsusi qeyd etməliyəm, Azərbaycan metro tarixində önəmli izlər qoyan, bir sıra yeniliklərə imza atan Tagı Əhmədov və onunla 40 ilə yaxın çiyin-çiyinə addımlayan, bəzən bütün çətinliklərə sinə gərərək ayaqda durmağı bacaran xanımı-ömür gün yoldaşı Salatın Əhmədli ilə birlikdə öz xeyirxah əməlləriylə Azərbaycan elminin, mədəniyyətinin, ədəbiyyatının çiçəklənməsində təmənnasız xidmət ediblər və edirlər.

Xeyirxahlıq etməyi bacarmaq, imkansızın əlindən tuta bilmək hər insana nəsib olmur. Bunu edə bilənlər xoşbəxt insanlardır. Gözləri yurd yeri, ürəyi Vətən olan Salatın Əhmədli kimi.

**SÜDABƏ SƏRVİ**
**Yazıçı-jurnalist, Prezident mükafatçısı, AYB-nin, AJB-nin üzvü**